InterFood
Azerbaijan

5 | 6 | 7 | 8
MAY 2026
BAKI EKSPO MƏRKƏZİ



31-ci Azərbaycan Beynəlxalq

# Qida Sənayesi Sərgisi

# SƏRGİ ÜZRƏ HESABAT

InterFood Azerbaijan

# Mündəricat


| | |
|---|---|
| Sərgi haqqında | 1 |
| Azərbaycan Respublikasının Prezidentinin səfəri | 2 |
| Sərginin rəsmi açılış mərasimi | 3 |
| VİP qonaqların rəyləri | 4 |
| PR kampaniyası və KİV-də işıqlandırma | 6 |
| Sponsorlar və tərəfdaşlar | 7 |
| Reklam kampaniyası | 8 |
| Ziyarətçilər haqqında | 9 |
| Ziyarətçilərin rəyləri | 10 |
| İştirakçılar haqqında | 11 |
| İştirakçıların rəyləri | 12 |
| Sərgi çərçivəsində əlavə tədbirlər | 13 |
| InterFood Azerbaijan 2026 sərgisi | 19 |














# INTERFOOD AZERBAIJAN —

Xəzər regionunun 30 ildən artıq tarixə malik aparıcı beynəlxalq qida sənayesi sərgisidir. Fəaliyyət göstərdiyi illər ərzində sərgi dünyanın müxtəlif ölkələrindən istehsalçıları, distribütorları, avadanlıq təchizatçılarını və sahə üzrə mütəxəssisləri bir araya gətirən səmərəli biznes platforması kimi özünü təsdiq etmişdir.

Hər il InterFood Azerbaijan iştirakçılara ən son məhsul, texnologiya, avadanlıq və xidmətlərini nümayiş etdirmək, potensial müştərilər və biznes tərəfdaşları ilə birbaşa əlaqələr qurmaq, satış coğrafiyasını genişləndirmək və yeni bazarlara çıxış əldə etmək üçün unikal imkanlar yaradır. Sərgi uzunmüddətli əməkdaşlığın inkişafına, təcrübə mübadiləsinə və qida sənayesindəki aktual tendensiyalarla tanış olmağa əlverişli şərait yaradır.

InterFood
Azerbaijan

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ VƏ BİRİNCİ VİTSE-PREZİDENTİNİN SƏRGİYƏ SƏFƏRİ



Mayın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezidenti Mehriban Əliyeva sərgini ziyarət ediblər. Ekspozisiyalarla tanışlıq zamanı onlar Azərbaycanın aqrar potensialını nümayiş etdirən innovativ həllər və məhsullarla tanış olmuş, həmçinin xarici dövlətlərin milli pavilyonlarını və stendlərini ziyarət etmişlər.












# SƏRGİNİN
# RƏSMİ AÇILIŞ MƏRASİMİ




2026-cı il mayın 5-də Bakı Ekspo Mərkəzində
31-ci Azərbaycan Beynəlxalq Qida Sənayesi Sərgisinin
rəsmi açılışı baş tutdu.











# RƏSMİ QONAQLARIN RƏYLƏRİ



## Məcnun Məmmədov

**Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri**

«Regionun aparıcı aqrar platformalarından biri kimi mövqeyini möhkəmləndirmiş "Caspian Agro" sərgisi bu il yeni konseptual yanaşma — "Caspian Agro Week" formatında təşkil olunub. Bu yanaşma çərçivəsində sərgi yalnız məhsul və texnologiyaların nümayişi ilə məhdudlaşmır, həmçinin aqrar sektorun müxtəlif istiqamətlərini əhatə edən forumları və ölkədə fəaliyyət göstərən iri ixtisaslaşmış innovativ təsərrüfatlara təşkil olunan səfərləri də özündə birləşdirir.
Bu format aqrar ekosistemin bütün iştirakçılarını bir araya gətirərək əməkdaşlıq əlaqələrinin genişləndirilməsi üçün əlverişli imkanlar yaradır».



## Qoşqar Təhməzli

**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin sədri**

"Qida məhsullarının istehsalı və istehlakı zəncirinin bütün mərhələlərində fəaliyyət göstərən tərəflərin iştirak etdiyi bu beynəlxalq tədbir çərçivəsində qida sahəsində məhsul və xidmətlərin nümayişinin yeni işgüzar əlaqələrin qurulmasına və mövcud əlaqələrin genişləndirilməsinə mühüm töhfə verdiyini hesab edirəm."



## Orxan Məmmədov

**Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri**

«Aqrar və qida sənayesi iştirakçılarını bir araya gətirən bu mötəbər platformalar müvafiq sahələrdə tətbiq olunan ən son yeniliklərin və innovativ həllərin təqdimatı, yeni tərəfdaşlıqların qurulması və biznes imkanlarının genişləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.
Bu sərgilər həmçinin qabaqcıl təcrübə mübadiləsi əsasında sektorun inkişaf istiqamətlərini müəyyənləşdirən mühüm görüş məkanı kimi çıxış edir.
Burada təqdim olunan müasir yanaşmalar kənd təsərrüfatında məhsuldarlığın artırılması, qida sənayesində keyfiyyət standartlarının yüksəldilməsi, resurslardan daha səmərəli istifadə və "yaşıl iqtisadiyyat" prinsiplərinin tətbiqi istiqamətində əldə olunan irəliləyişi əyani şəkildə nümayiş etdirir».

# RƏSMİ QONAQLARIN RƏYLƏRİ



**Yusif Abdullayev**
**Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) İcraçı direktoru**

"InterFood Azerbaijan və Caspian Agro Week sərgilərində müxtəlif ölkələrdən çoxsaylı şirkətlərin iştirakı bu tədbirlərin geniş miqyasını və yüksək əhəmiyyətini əyani şəkildə nümayiş etdirir.
Əminəm ki, builki sərgilər də öz məhsuldarlığı, yeni tərəfdaşlıqların qurulması və innovativ təşəbbüsləri ilə yadda qalacaq."



**Emin Dostiyari**
**Azərbaycan Qida və İçki Sənayeçiləri Assosiasiyasının (AQİSA) İdarə Heyətinin sədri**

"Əminik ki, InterFood Azerbaijan 2026 və Caspian Agro Week 2026 sərgiləri yeni tərəfdaşlıqların qurulmasına, bazar imkanlarının genişləndirilməsinə və sahənin dayanıqlı inkişafına mühüm töhfə verəcək. Bütün iştirakçılara məhsuldar və uğurlu fəaliyyət arzulayır, sərgilər çərçivəsində qurulan tərəfdaşlıqların gələcək inkişaf üçün dəyərli nəticələr verəcəyinə inanırıq."



**Nasar Hayat**
**FAO-nun Azərbaycandakı Nümayəndəsi və FAO-nun Azərbaycan üzrə Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin rəhbəri**

Azərbaycanın aqrar-ərzaq sektorunun nailiyyətlərini qeyd edərkən və əməkdaşlığın yeni üfüqlərinə nəzər salarkən, hər birinizə fədakar fəaliyyətinizə görə təşəkkürümü bildirirəm. Caspian Agro Week sadəcə sərgi deyil – bu, öyrənmək, əməkdaşlıq etmək, yaradıcı ideyalar formalaşdırmaq və tərəfdaşlıqlar qurmaq üçün unikal bir məkandır.
Burada müzakirə olunan ideyalar gələcək illər üçün ərzaq sistemlərinin inkişaf istiqamətini müəyyənləşdirmək gücünə malikdir.

# SƏRGİNİN PR FƏALİYYƏTİ VƏ MEDİADA İŞIQLANDIRILMASI




## Mətbuat Konfransı

2026-cı il aprelin 28-də JW Marriott Absheron otelində 31-ci Azərbaycan Beynəlxalq Qida Sənayesi Sərgisi InterFood Azerbaijan-ın açılışına həsr olunmuş mətbuat konfransı keçirildi.

### Mətbuat konfransinda iştirak etmişdilər



**Anar Cəfərov**
Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin direktoru



**Toğrul Qafarbəyli**
Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin direktor müavini



**Sevda Hacıyeva**
Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzində şöbə müdiri



**Fərhad Aşurbəyli**
"Azərbaycan Kulinariya Mütəxəssisləri Assosiasiyası"nın İcraçı direktoru



**Bəhruz Hidayətzadə**
"Caspian Event Organisers" şirkətinin İcraçı direktoru



**Rəna Abutalıbova**
"Caspian Event Organisers" şirkətində Satış və biznesin inkişafı üzrə direktor



**Zarina Məmmədova**
"Caspian Agro Week" və "InterFood Azerbaijan" sərgilərinin layihə rəhbəri

## SƏRGİNİN MEDİA VƏ İNFORMASİYA DƏSTƏYİ

İNFORMASİYA TƏRƏFDAŞLARI

İNFORMASİYA DƏSTƏYİ

İNTERNET DƏSTƏYİ

# SPONSOR VƏ TƏRƏFDAŞLAR

## TƏŞKİLATİ DƏSTƏK

AZƏRBAYCAN RESPUBLİKASININ
KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ

## DƏSTƏK

AZƏRBAYCAN RESPUBLİKASININ
QİDA TƏHLÜKƏSİZLİYİ
AGENTLİYİ

AZƏRBAYCAN RESPUBLİKASININ
KİÇİK VƏ ORTA BİZNESİN
İNKİŞAFI AGENTLİYİ

AZƏRBAYCAN RESPUBLİKASININ
İXRACIN VƏ İNVESTİSİYALARIN
TƏŞVİQİ AGENTLİYİ

AZƏRBAYCAN RESPUBLİKASI
SAHİBKARLAR (İŞƏGÖTÜRƏNLƏR)
TƏŞKİLATLARI MİLLİ KONFEDERASİYASI

AZƏRBAYCAN
QİDA VƏ İÇKİ SƏNAYEÇİLƏRİ
ASSOSİASİYASI

BMT-NİN ƏRZAQ VƏ
KƏND TƏSƏRRÜFATI
TƏŞKİLATI

AZƏRBAYCAN
SƏRGİ TƏŞKİLATÇILARI
ASSOSİASİYASI

## TƏŞKİLATÇILAR

## RƏSMİ MEHMANXANALAR

## RƏSMİ SƏYAHƏT AGENTLİYİ

## STEND QURAŞDIRILMASI ÜZRƏ RƏSMİ TƏRƏFDAŞ

## RƏSMİ OUTDOOR REKLAM TƏRƏFDAŞI

# KİV İCMALI

## KÜÇƏ REKLAMI

- Bilbordlar
- Posterlər
- Monitorlar
- Rollaplar



















**219** xəbər portalında **1526** xəbər

**12** qəzet və jurnalda **98** məqalə

**8** TV kanalda **121** süjet

**5** radio kanalda **8** yayım

# SƏRGİ ZİYARƏTÇİLƏRİ

**15646** Ziyarət sayı

**12036** Unikal ziyarətçilərin sayı

## ZİYARƏTÇİLƏRİN FƏALİYYƏT SAHƏLƏRİ

**33 %**
Qida məhsullarının distribütorları

**44 %**
AQK, kənd təsərrüfatı məhsulları

**37 %**
Meyvə-tərəvəz məhsulları istehsalı

**34 %**
Ət kombinatları, ət emalı

**35 %**
Süd məhsulları və pendir istehsalı

**26 %**
Qablaşdırma və qablaşdırma avadanlıqları

**19 %**
Bakaleya və snək məhsulları istehsalı

**32 %**
Çörəkbişirmə və qənnadı istehsalı

**27 %**
İçki istehsalı

**32 %**
Ticarət və pərakəndə satış şəbəkələri

**23 %**
Korporativ satınalma nümayəndələri

**24 %**
Qida avadanlıqları

**23 %**
Yağ və piy məhsulları

**25 %**
HoReCa

**21 %**
İnqrediyent, əlavələr və ədviyyat istehsalı

**29 %**
Qida, içki və inqrediyent istehsalçıları

**13 %**
Nazirliklər və dövlət qurumları

**9 %**
Servis xidmətləri

**93%** Ziyarətçilərin 93% öz səfərini səmərəli hesab edirlər

**79%** Ziyarətçilərin 79% satın alma qərarlarını qəbul edir və ya onlara təsir göstərir

# ZİYARƏTÇİLƏRİN RƏYLƏRİ



## Mariya Qubareva

“Lenta” şirkətinin
meneceri

“InterFood Azerbaijan” sərgisində iştirakımızın məqsədi yeni tərəfdaşlar tapmaq, işgüzar əlaqələrimizi genişləndirmək və mövcud tərəfdaşlarımızla daha keyfiyyətli əməkdaşlığı möhkəmləndirməkdir.
Bu tip sərgilər istehsalçıların məhsulları ilə birbaşa tanış olmaq və onların təqdim etdiyi fərqli təklifləri eşitmək imkanı yaratdığı üçün olduqca faydalıdır.
Belə irimiqyaslı tədbirlərdə pərakəndə satış sektorunun nümayəndələri tez-tez təchizatçılardan gözlənilməz və maraqlı təkliflər alırlar.
Bizə yalnız meyvə və tərəvəz məhsulları deyil, həmçinin ət və süd məhsulları ilə bağlı təkliflər də təqdim olunur. Bununla yanaşı, axtarış prosesində perspektivli meyvə və tərəvəz tədarükçüsünü müəyyən edərək potensial biznes tərəfdaşı qazanmış olduq.



## İvan Levçenko

TABIA Group-un
kulinariya direktoru

Bu ilki sərgi bizə ət, çay və fri yağları tədarükçüləri, həmçinin pendir istehsalçıları ilə əlaqələr qurmağa imkan verdi.
Düşünürəm ki, bu perspektivli tanışlıqlar gələcəkdə müqavilələrin bağlanmasına səbəb olacaq.
Həmçinin çox sevindiricidir ki, şirkətlər qrupumuzun nümayəndələri “Qızıl Şah” kulinariya çempionatında iştirak edirlər.
Biz də onları dəstəkləməyə gəlmişik. Belə böyük və mötəbər sərgini bir gün ərzində peşəkar baxımdan tam əhatə etmək çətindir, buna görə də sərginin ikinci günündə də buraya gəldik.
Belə tədbirlər, şübhəsiz ki, lazımlı və faydalıdır. Dünyada tendensiyalar inanılmaz sürətlə dəyişir və bütün yeniliklərdən xəbərdar olmaq üçün biz daim InterFood sərgisini ziyarət edir və burada özümüz üçün faydalı nələrsə tapırıq. Müxtəlif məhsullar təqdim edən tədarükçülərin sayı nə qədər çox olsa, bu, hər kəs üçün bir o qədər yaxşıdır.



## Nadejda Volçenkova

“Fresh Market” MMC-nin
İdxal şöbəsinin rəhbəri

“Ümumilikdə sərgi məndə çox müsbət təəssürat yaratdı.
Burada təmsil olunan şirkətlərin səviyyəsi, məhsul çeşidinin genişliyi və ən əsası, təqdim olunan məhsulların təbii keyfiyyəti xüsusi diqqətimi cəlb etdi.
Dəvətə görə təşkilatçılara təşəkkürümü bildirirəm.”

# SƏRGİ İŞTİRAKÇILARI




## INTERFOOD AZERBAIJAN 2026 SƏRGİSİNİN İŞTIRAKÇI ÖLKƏLƏRİ

- Azərbaycan
- Belarus
- Benin
- Braziliya
- Vyetnam
- Qana
- Misir
- Zambiya
- İndoneziya
- İtaliya
- Qazaxıstan
- Kamerun
- Çin
- Kot-d'İvuar
- Nigeriya
- Rusiya
- Şimali Kipr
- Senegal
- Somali
- ABŞ
- Tayland
- Tanzaniya
- Türkmənistan
- Türkiyə
- Çexiya
- Şri-Lanka
- Efiopiya
- Cənubi Sudan

# İŞTİRAKÇILARIN RƏYLƏRİ



**Olqa Tişkova**
Belarus Ticarət və Sənaye Palatasının layihə meneceri

Bizim üçün bu sərgidə iştirak etmək böyük şərəfdir və ekspozisiyalarımızdan məmnunuq. Bu dəfə sərgidə 24 şirkət təqdim edirik. Sərginin təşkilatçılığı çox yüksək səviyyədədir. İştirakçılar böyük həvəslə qatılırlar. Sərgidən sonra həmkarlar təəssüratlarını bölüşür və artıq çoxlu müsbət rəylər almışıq. İştirakçılar arasında burada dəfələrlə iştirak edən şirkətlər də var, yeni iştirakçılar da çoxdur. Azərbaycanla aktiv və səmərəli ticarət aparmağın mümkün olması barədə məlumat sürətlə yayılır. Düşünürəm ki, sərgidən sonra iştirakçı şirkətlər yaxın zamanda yeni müqavilələr imzalayacaqlar.



**Məmməd Qəniyev**
“Meysari” şirkətinin ixrac üzrə meneceri, Azərbaycan

Yerli istehsalçı kimi biz sərgidə əsasən məhsulumuzu xarici iştirakçılara və ziyarətçilərə təqdim etmək məqsədilə iştirak edirik. Sərgi gözləntilərimizi tam doğruldur. “Meysari” şərablarını sərgi zallarında dequstasiya etmək imkanı potensial tərəfdaşlara məhsulumuzu ən yaxşı şəkildə təqdim edir. Düşünürəm ki, sərginin müsbət nəticələrini yaxın zamanda görəcəyik.



**Celal Can Berkay**
“Erensoy Gida və ambalaj makinaları” şirkətinin satış mühəndisi, Türkiyə

“Biz artıq beşinci ildir ki, bu sərgidə iştirak edirik. Məqsədimiz işgüzar əlaqələrimizi genişləndirmək və əməkdaşlıq üçün yeni tərəfdaşlar tapmaqdır. Sərgidə iştirak etdiyimiz illər ərzində əhəmiyyətli nəticələr əldə etmişik. Bu ilki sərgi çərçivəsində də bir sıra görüşlər və danışıqlar keçirmişik.
Əminik ki, tədbir başa çatdıqdan sonra yeni və qarşılıqlı faydalı tərəfdaşlıq əlaqələri quracağıq.”



**Çasini Lertpinçao**
ixrac üzrə menecer, Exotic Food PCL, (Tayland)

Bu, bizim Azərbaycanda sərgidə ilk iştirakımızdır və bu təcrübə bizim üçün çox dəyərli və ilhamverici olub. Məhsullarımıza olan yüksək maraq bizi xoş şəkildə təəccübləndirdi hətta gözlədiyimizdən də artıq. Buradakı insanlar yeni dadlara və kulinariya təcrübələrinə açıqdırlar ki, bu da gələcək inkişaf üçün çox müsbət siqnaldır.
Biz həmçinin sərginin yüksək səviyyədə təşkilini və biznes üçün əlverişli atmosferini yüksək qiymətləndiririk.
Bu, ünsiyyət, əlaqələrin qurulması və mənalı tərəfdaşlıqların yaradılması üçün əla mühit yaradır.

# B2B GÖRÜŞLƏR




Sərgi çərçivəsində B2B görüşlər təşkil olunmuşdur. Bu görüşlər eyni anda bir neçə əsas müştəri ilə işgüzar danışıqlar aparmaq üçün əlavə imkanlar yaratmışdır. Görüşlərdə xarici və yerli istehsalçılar, distribütorlar, eləcə də pərakəndə satış şəbəkələrinin nümayəndələri iştirak etmişlər.












# RETAIL CENTRE




**Sərgi çərçivəsində ilk dəfə olaraq ticarət şəbəkələrinin görüş mərkəzi – Retail Centre təşkil olunmuşdur.**
**Retail Centre təchizatçılar, istehsalçılar və ticarət şəbəkələrinin satınalma nümayəndələri arasında birbaşa əməkdaşlıq üçün yaradılmış peşəkar B2B platforması və danışıqlar məkanıdır.**
Tədbirdə 13 ticarət şəbəkəsi iştirak etmişdir.
Onların arasında həm yerli, həm də xarici şirkətlər təmsil olunmuşdur: Bravo Supermarket, Bazarstore Supermarket, Rahat Supermarket, Araz Supermarket, Megastore Supermarket, Tamstore, Oba Market, China Market, Galeon Seafood, APlus Supermarket, “LENTA”, Fresh Market LLC, “SAMOKAT”.






# FERMER TURLARI




Sahibkarları yeni texnologiyalarla tanış etmək və təcrübə mübadiləsini təmin etmək məqsədilə hər il sərgi təşkilatçıları tərəfindən Azərbaycanın regionlarından olan fermerlər üçün işgüzar turlar təşkil olunur. Bu il sərgini Azərbaycanın 50-dən çox regionundan sahibkarlar və fermerlər ziyarət etmişlər.











# SƏRGİNİN AXŞAM ZİYAFƏTİ




5 may tarixində sərginin qonaqları və iştirakçıları üçün "Elite Events Hall"da axşam ziyafəti təşkil olunmuşdur.










# BEYNƏLXALQ AQRAR İNNOVASİYALAR FORUMU



## Caspian Agro Week çərçivəsində forum və konfransların əsas istiqamətləri

- iqlim, iqtisadi və geosiyasi çağırışlar şəraitində ərzaq təhlükəsizliyi
- aqro-ərzaq sistemlərinin logistikası, marşrutlar və təchizat zəncirlərinin təhlükəsizliyi
- süni intellektin tətbiqi və aqrar ekosistemlərin, o cümlədən startapların inkişafı
- kənd təsərrüfatının rəqəmsallaşdırılması və innovativ texnologiyaların tətbiqi
- aqrar sektorda dövlət, biznes və təhsil müəssisələri arasında əməkdaşlığın inkişafı
- yerli istehsalın stimullaşdırılması və bazar imkanlarının genişləndirilməsi
- kənd təsərrüfatının inkişafında media və ictimai kommunikasiya rolu
- aqroparkların aqrar biznes üçün yeni platforma kimi inkişafı
- qadınların kənd təsərrüfatında iştirakının genişləndirilməsi
- beynəlxalq əməkdaşlıq (Afrika–Azərbaycan daxil olmaqla)
- heyvandarlıq, bitkiçilik, quşçuluq, balıqçılıq və baytarlığın inkişafı
- dayanıqlı kənd təsərrüfatı, emal və əlavə dəyər yaradılması
- aqrar sahədə dövlət-özəl tərəfdaşlığı
- aqrar sığorta və risklərin idarə olunması
- aqrar elm və elmi-praktik əməkdaşlığın inkişafı

**Forum aqrar sektorun aktual çağırışlarını və perspektivlərini müzakirə etmək üçün ekspertləri və iştirakçıları bir araya gətirmişdir. İşgüzar proqram çərçivəsində 98 spiker iştirak etmişdir.**

**Forum və konfranslar aqrar sektorun beynəlxalq və sahələrarası dialoqunun gücləndirilməsinə, həmçinin innovativ və dayanıqlı inkişafın təşviqinə töhfə vermişdir.**

# “QIZIL ŞAH 2026” BEYNƏLXALQ KULİNARİYA ÇEMPİONATI



**“Qızıl Şah 2026” Beynəlxalq Kulinariya Çempionatı Azərbaycan Kulinariya Mütəxəssisləri Assosiasiyası tərəfindən təşkil olunmuşdur. Çempionat Ümumdünya Kulinariya Cəmiyyətləri Assosiasiyasının (Worldchefs) lisenziyası əsasında keçirilmiş və beynəlxalq standartlara və qaydalara tam uyğun təşkil edilmişdir.**

Münsiflər heyətinin tərkibinə 18 ölkədən Worldchefs tərəfindən lisenziyalaşdırılmış şef-aşpazlar və hakimlər daxil olmuşdur. Çempionatda 11 ölkədən 22 komanda müxtəlif nominasiyalar üzrə mübarizə aparmışdır. Yarışda 73 xarici şef-aşpaz iştirak etmiş, fərdi müsabiqələrdə isə ümumilikdə 160 aşpaz öz bacarıqlarını nümayiş etdirmişdir.










InterFood Azerbaijan

# 11 | 12 | 13 | 14 MAY 2027

**BAKI EKSPO MƏRKƏZİ**










## SƏRGİNİN ƏSAS BÖLMƏLƏRİ

- UŞAQ QİDALARI
- QƏNNADI VƏ ÇÖRƏK-BULKA MƏHSULLARI
- SOYUQ ZƏNCİR VƏ LOGİSTİKA
- KONSERVASİYA
- SÜD MƏHSULLARI
- BALIQ VƏ DƏNİZ MƏHSULLARI
- DONDURULMUŞ MƏHSULLAR VƏ YARIMFABRİKATLAR
- AVADANLIQ
- BAKALEYA MALLARI
- İDMAN QİDALARI
- QABLAŞDIRMA
- ÇAY VƏ QƏHVƏ
- QLÜTENSİZ MƏHSULLAR
- İÇKİLƏR (SPİRTLİ VƏ SPİRTSİZ)
- QİDA TƏHLÜKƏSİZLİYİ VƏ KEYFİYYƏTƏ NƏZARƏT
- MEYVƏ VƏ TƏRƏVƏZLƏR
- HALAL MƏHSULLAR
- HORECA
- İNQREDİYENTLƏR
- ƏT VƏ TOYUQ MƏHSULLARI
- SAĞLAM QİDALANMA BİOMƏHSULLAR
- YAĞ-PİY MƏHSULLARI VƏ SOUSLAR

# InterFood Azerbaijan

## 11 | 12 | 13 | 14 MAY 2027

**BAKI EKSPO MƏRKƏZİ**

**www.interfood.az**

# InterFoodAzerbaijan

32-ci Azərbaycan Beynəlxalq

# Qida Sənayesi Sərgisi

**TƏŞKİLATÇILAR:**

ceo caspian event organisers

ITECA CASPIAN

**TƏŞKİLATİ DƏSTƏK:**

**RƏSMİ DƏSTƏK**

AZƏRBAYCAN RESPUBLİKASI KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ

AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ

AZƏRBAYCAN RESPUBLİKASININ KİÇİK VƏ ORTA BİZNESİN İNKİŞAFI AGENTLİYİ

AZƏRBAYCAN RESPUBLİKASININ İXRACIN VƏ İNVESTİSİYALARIN TƏŞVİQİ AGENTLİYİ

AZƏRBAYCAN RESPUBLİKASI SAHİBKARLAR (İŞƏGÖTÜRƏNLƏR) TƏŞKİLATLARI MİLLİ KONFEDERASİYASI

AZƏRBAYCAN QİDA VƏ İÇKİ SƏNAYEÇİLƏRİ ASSOSİASİYASI

BMT-NİN ƏRZAQ VƏ KƏND TƏSƏRRÜFATI TƏŞKİLATI

AZƏRBAYCAN SƏRGİ TƏŞKİLATÇILARI ASSOSİASİYASI